YENİ TƏFƏKKÜR Yüksəlişə doğru yol! №18

# Dəyişən növraq



(Hekayə)

Taleyin yaz çağı ucqar kəndlərin birində, ədəbli bir ailədə Ceyran adlı bir qız övladı dünyaya gəldi. Həyatın amansızlığı üzündən əzab-əziyyətlə böyüdü. Yeniyetmə yaşına çatana qədər Allah bilir, hansı məhrumiyyətlərə düçar oldu. Ağlı tam kəsəndə qarşısına məqsəd qoydu ki, mütləq savad alacaq, həkim peşəsinə yiyələnəcək. Çətinliklər onu yenə əhatəsinə aldı, o da gecəsini gündüzünə qatıb oxudu, nəhayət, məqsədinə çatdı; ali məktəbə qəbul oldu. Elə sevinirdi ki, elə bilərdin kimsə dünyanı ona bağışlayıb...

Ceyran həyatın təlatümləri ilə cəngə çıxmışdı; yaşadığı acı günlərin coşqusundan usanmadı, seçdiyi peşədə təhsil alırdı. Oxuduğu şəhər könlünə yatmışdı. Hər gün bu şəhərin bir az isti, bir az da soyuq çırpıntılarının qoynunda illəri ard-arda yola saldı, ali təhsilini "əla" qiymətlərlə başa vurdu...

Ceyranın arzusu təhsil aldığı şəhərdə həkim işləmək idi. Ancaq atası onu təkidlə kəndə gətirdi. Bununla da onun arzularının yetə biləcəyi ucalıqların hamısının qapısını bağladı. Sanki kənddə "yel əsmiş, qoz tökülmüşdü..."

Ceyran məyus və yorğun ümidlərlə kəndə qayıtdı. Kənddə neyləyəcəkdi? Ya balaca bir mərkəzdə laborant olacaqdı, ya da... Olan olmuş, Ceyran kəndə qayıtmışdı.

Kənddəki ilğımların Ceyranı inadla sıxdığı bir gün ona şəhərdən elçi gəldi. Oğlanın adı Davud idi, bir yerdə oxumuşdular. Ailə şəhərdə yaşasa da, hiss olunurdu ki, müasirlik eşqindən azacıq aralıdadır...

Böyüklərin razılığı ilə elçilərə "hə" deyildi. Az vaxtda gənclər ailə qurdu. Davudgilin ailəsində çox adam var idi. Tez-tez ağız deyəni qulaq eşitmir, ya da hərə bir tərzdə təzə gəlinə yanaşırdı. Bu qədər adamın içində baş çıxartmaq da Ceyran üçün çox çətin idi. Peşəsi br yana qalmışdı, axşama kimi evin işlərini görür, yuxudan durandan axşam düşənədək bişirib-düşürürdü. Arada ailə qurduğuna peşiman olur, dərhal da bu hissi başından ötürürdü. Çünki Davudu sevirdi. Davud isə bu sevgi qarşılığında ona arxa durmurdu. Neçə dəfə Ceyranın həkim işləmək istəyinin üstündən xətt çəkmişdi. Hətta Davudun ata-anası da onun işləməsinə qarşı çıxırdı. Sanki Ceyranı qul kimi işlətməyə gətirmişdilər. Bu dərin iztirabdan Ceyranın içində neçə-neçə arzusu yarpaq kimi qurumuşdu.

İllər elə yeyin ötürdü ki... Bu minvalla aradan bir xeyli vaxt keçmişdi. Bir gün Davudun valideynləri Ceyranı yanlarına çağırıb dedilər ki, övladın olmur, biz də nəvə həsrəti ilə alışıb-yanırıq. Ona görə səni boşamaq niyyətindəyik. Bu sözü eşidəndə Ceyranı sanki şimşək vurdu. İçindəki bütün istəklər xəzələ döndü. Kəndə nə üzlə qayıdacaqdı? Hərə adına bir söz çıxaracaqdı. Kim inanacaqdı ki, onu övladı olmadığı üçün geri qaytarıblar? Ani susqunluqdan sonra Davudun valideynlərinə yalvardı ki, ona bir az da möhlət versinlər. Elə ağladı, elə bir həyada şivən qopardı ki, gözlərindəki yaş yanaqlarında şırım açdı. Sanki Davudun valideynlərinin ona rəhmi gəldi, xeyli düşünüb dedilər:

-Eybi yox, sənə möhlət veririk.

Aradan on il ötmüşdü. Bir neçə il də yel sürətilə ötüb keçdi. Ceyran artıq hamilə idi. Ailədəki insafsız davranışlar isə səngimədi. Ceyran düşündü ki, bəlkə övladı dünyaya gələr, ailənin nəvə sevgisi ona olan zülmü azaldar. Təəssüf ki, belə olmadı. Vaxt-vədə yetdi, Ceyranın qızı oldu. Davud da, ailəsi də Ceyrana qarşı əvvəlki davranışda idi; sanki ailə buna vərdiş etmişdi, yeni doğulan uşaq da onların qəddar düşüncəsini dəyişə bilmədi. Ceyran əvvəlki kimi səhərdən-axşama qul kimi işləyir, arada uşağına baxmaq yadından belə çıxırdı. Özünə isə ümumiyyətlə vaxt ayıra bilmirdi.

Davud get-gedə əyyaş həyatı yaşayır, hər gün yeyib-içir, çox vaxt evə gec gəlir, gələndə də vəhşi sifətini ortaya qoyur, çığırıb-bağırırdı. Hətta özünü elə aparırdı ki, sanki Ceyran onun həyat yoldaşı yox, sadəcə, evdə-eşikdə, həyətdə-bacada işləmək üçün gətirdiyi quldur. Bu hal Ceyrana dəhşət yaşadırdı: belə bir adamı necə sevə bilib?

Bir neçə il də aradan yel kimi şütüyüb keçdi. Ürəyinin qubar bağladığı günlərin birində Ceyran eşitdi ki, Davud başqa bir qadınla yaşayır. Anladı ki, həyat yoldaşının bu vaxta qədər evə gec gəlməsi, qışqır-bağır salması da elə bu qadına görə imiş. Yaxşı-yaxşı dərk etdi ki, Davud o qadınla xeyli vaxtdır birlikdədir. Əvvəlcə susdu, sonra buludlar kimi kükrədi, necə hayqırdısa, illərlə içində daşa döndərdiyi dözüm bir anda parça-parça oldu...

Beləcə, Ceyran özünə həyat acıları yaşatdı, Davud isə birlikdə olduğu qadından qopub geri qayıtmadı. Olan körpə qızcığaza oldu; o, sevgisi daşa dəymiş bir ananın ağuşunda sakit-sakit uyudu, əxlaqsız düşüncə ilə başqa qadının qoynunda məst olan atanın günahlarına pərdə oldu...

Həyat öz amansız sükunətləri ilə Ceyrana mətin olmağı çoxdan öyrətmişdi. O, qarşılaşdığı acı təəssüratların soyuğunda donmadı, əksinə, isti baxışlarını qızına söykək edib yeni həyata başlamaq barədə qərar verdi. Çətin də olsa, oxuduqlarını bir daha təkrarladı, elmi yenilikləri mütaliə etdi, imtahan verib istəyinə nail oldu. Həyat onun üzünə güldü. O, bir neçə ilə təcrübəli və böyük uğurlar qazanmış bir iş adamı oldu. Yaşadıqlarının acığına insanlara qarşı elə mərhəmətli oldu ki, hamı ona "Ceyran xanım" deyə müraciət etdi. Neçə-neçə insan onun xeyirxahlıq işığında arzularına qovuşdu, çörək yiyəsi oldu. Qazandığı minnətdarlıqlar Ceyranı xoşbəxt insanlardan birinə çevirdi.

Artıq çoxları Ceyran xanıma həsədlə baxırdı. Bir vaxtlar az qala imam hesab etdiyi Davud da ona kənardan qibtə hissi ilə baxır, yaxın gəlməyə özündə cəsarət tapmırdı. Heç Ceyran da bu cəsarəti ona vermədi. Nəyinə lazım idi. Artıq öz ayaqlarının üstündə durmağı bacarırdı. Bundan sonra köhnə düşüncələrlə yaşayan insanlar ona zərrə qədər də gərək deyildi.

Ceyran müdhiş bir iş adamı idi. Dərin rəğbət, xüsusi hörmət və ehtiram qazanmışdı. Üstəlik, o, bütün qadınlara bir nümunə, bir görk idi, onlara ayaqlarının üstündə dayanmağı tövsiyyə edirdi...

Eh, həyat, amansız da olsan, bağrımıza dağ da bassan, səni yaşamağa, sevməyə məcburuq...

**Aytən Ayan**